# Ədəbiyyat qəzeti

2

22 may / 2021



*Əzizim Sabir!*

*Şəkidəyəm. Bu müddətdə sənin parlamentdəki çıxışını dinlədim və 1.07.1997 tarixli "Hürriyyət"də çap olunan qısa məqaləni oxudum. Parlamentdəki hərtərəfli düşünülmüş, ustalıqla deyilən fikirlərinə görə səni öpürəm. Sən həmişə öz sözünü mərdliklə deməyi bacarmısan. İndiki vaxtda mətləbi əyməədən, yaltaqlanmadan, yarınmadan həqiqəti demək böyük ağılla bərabər, böyük kişilik tələb edir. Sən bu iki qütblü ağılın və məntiqin hesabına birləşdirməyi bacaran oğulsan. Buna görə də mən səni həmişə çox istəmiş, ömrümün sonuna qədər də səni özümə əqidə qardaşı hesab etmiş və edəcəyəm.*

*Elçibəy haqqında televizorda verilən əhvalata baxıb irgəndim. Söyüş, təhqir qüvvət əlaməti deyil, zəiflik əlamətidir. Sən qəzetdə buna çox ağıllı cavab vermisən. Yusif Səmədoğlunun cavabı da çox tutarlıdır. Hər ikiniz çox sağ olun.*

*Bir məqaləmdə səni "Kişi şair" şair adlandırmışam. Çünki sən bütün yaradıcılığın boyu qəlbinin səsini yazmış, özünü bizə əsl Kişi kimi tanıtdırmısan.*

*Əziz qardaşım, xəstəlikdən, zəiflikdən yaxa qurtara bilmirəm. İndi qocalığımı hiss edirəm. Ona görə də əlim qələm tutmur. Bu məktubu çox çətinliklə yazdım. Qələm əlimdə titrəyir. Məktubun pintiliyin zəiflik əlamətidir.*

*Bir daha səni öpürəm.*

*Məndən və ailəmdən Tənzilə xanıma salam söylə.*

*Hörmətlə,*

***Bəxtiyar VAHABZADƏ***

*3.07.1997*